# Kredo

TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR

Müstəqil ictimai-siyasi, publisistik qəzet №01 (1295) 01 yanvar 2026-cı il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır


# YENİ İLİNİZ MÜBARƏK!

*Əlimə qələm alıb yazıya başladığım gündən bəri varlığımda mənimlə birgə yaşayan bir insan görürəm. Hərdən mən elə bilirəm ki, o insan mağara zamanından keçib gəlib.*

*Hardan getsəm, hara dönsəm mənimlə birgədir o insan. Nə yazıramsa onun gördüklərini, yaşadıqlarını yazıram.*

*O, çox durudur, çox arıdır... Hələ dinlər, təriqətlər, sərhədlər, zamanlar onun varlığına təcavüz etməyib, bütövlüyünü, böyükləyünü qorumaqdadır. Mən onu yazıram...*

**Əli Rza XƏLƏFLİ.**

# Yanırsan... yanmaqdan usanmırsan

*("Ölməyən sevginin dastanı" kitabından parçalar)*



*Əli Rza XƏLƏFLİ*

**Yanırsan... yanmaqdan usanmırsan**

Ey könül, bir oddasan sevgilinlə, sevginlə,
Öz içindən yanırsan, yanmaqdan usanmırsan.
Başına gələnləri yozma sən özgə yerə,
Niyə, nədən... qanırsan, qanmaqdan usanmırsan.

Aşiqlər öz eşqini söz içində saxlayar,
Yanan dili, dodağı köz içində saxlayar.
Bu bəlanı yaddaşın göz içində saxlayar.
Hara dönsən anırsan, anmaqdan usanmırsan.

Məcnunluq üz çevirib, səhraya dada gedir,
Fərhad dağı yarmağa, Kərəm də oda gedir.
Düşüncənə hakimdir göy üzü, ada gedir,
Onu Allah sanırsan, sanmaqdan usanmırsan.

Tökələr dünya malı, iştahın vecə saymaz,
Könlünü alan ceyran gələ, gör necə saymaz.
Ov gəzən ovçu gözün bərəni heçə saymaz,
Bələn üstə sunursan, sunmaqdan usanmırsan.

Uçar qızıl qəfəsdən, bülbül koldan yığılmaz,
Vüsaldan ayrı düşən həsrət qoldan yığılmaz.
Min dəfə də yox desə, gözün yoldan yığılmaz,
Güzgü kimi sınırsan, sınmaqdan usanmırsan.

Hər görəndə oxlanır sinən də sadaq-sadaq,
Xəyalınla öpürsən izini dodaq-dodaq.
Sevginlə boy atırsan... duyğular budaq-budaq,
Qanad üstə qonursan, qonmaqdan usanmırsan.

Çox aşiqlər görmüşük, eşq onu huşdan salır,
Vaxt ötür, zaman keçir, ömürdən, yaşdan salır.
Ayrılıqlar bəxtinin yolunu qışdan salır,
Soyuğunda donursan, donmaqdan usanmırsan.

Yoxdur gecə-gündüzün, gəzirsən çırağ ilən,
Könül evi tikməyə memarı sorağ ilən;
Xəbər verdi Füzuli, "min dağı... dırnağ ilən",
Qaysaq-qaysaq yonursan, yonmaqdan usanmırsan.

Ey könül, ürəyində qəmlərin sıralanıb,
Hardan gəlib bu yazı, bəxtin də qaralanıb.
Xələfli neyləsin ki, gözündən aralanıb
Gördüyünü danırsan, danmaqdan usanmırsan.



**Yolum... sabahın dan üzünə**

Ey Vətən, adınla dillənib sazım,
Min hava çalsa da, ürək tellərim.
Sənsən ilk amalım, eşqim, avazım
Səninlə danışar şirin dillərim.

Kim ki, varlığını hakimi bilər,
İl üstə illəri xeyirə gələr;
Sənin bərəkətin üzünə gülər,
Güvənər varına geniş çöllərim.

Bu dünyanın toy-büsatı qurular,
Həqiqəti düz bilәndən sorular;
Güzgü tutar, sənə baxar, durular
Sonası nazlanan ayna göllərim.

Dərdi vağanıyar, dəni dağılar,
Başından dumanı, çəni dağılar;
Düşmənin pərəsi, yönü dağılar,
Çəkər yurd yerinə köçü ellərim.

Mənim Təbriz dərdim ötər, bilirəm,
Qəlbimdə həsrətim bitər, bilirəm.
Bir gün istəyinə yetər, bilirəm.
Xudafərin üstə açıq qollarım.

Gözümdə şimşəyəm, çaxıram indi,
Yağı diləkləri yaxıram indi.
Dan üzü közərir, baxıram indi,
Çağırır sabaha ümid yollarım.

Qış gedər, qarları sinədə qalmaz,
Hansı kölgəliyə sinə də, qalmaz.
Yazımın yazısı sinədə qalmaz,
Açar çiçək-çiçək yazı illərim.

Ürəkdə həsrətin buzu əriyər,
Diləklər bahara, yaza yeriyər;
Vədəsiz ölümlər ölər, çürüyər,
Ağlamaz bülbülsüz qönçə güllərim.

Dünya neçə dəfə o yana döndü,
Ağrı da çevrildi bu yana döndü;
Görüm öz qanına boyana, döndü,
Durular Arazda qanlı lillərim.

Yuxum yozumunu qurda danışar,
İlahi sevgidə, nurda danışar;
Dərdini kimsəsiz yurda danışar,
Sönmüş ocaqlarda soyuq küllərim.

Ey Vətən, istəklər qəlbimdə yatar,
Ayılıb düzülməz çəkə bir qatar;
Son anda nəfəsim kamına çatar,
Əsər Xələflidən sərin yellərim.

Dərdi bölən yaxşıdı,
Aşsan bələn yaxşıdı.
Mən bildiyim yaxşıdan
Allah bilən yaxşıdı...